AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 2/1

Bakı şəhəri 22 yanvar 2015-ci il

Azərbaycan Milli Elmlər Akademiyasında
2014-cü ildə fəlsəfə doktoru hazırlığı üzrə
doktoranturaya qəbulun nəticələri haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 avqust 2014-cü il tarixli 253s nömrəli sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasında 2014-cü ildə fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı 74 əyani və 47 qiyabi yer olmaqla ümumilikdə 121 yer müəyyən edilmişdir. Təsdiq edilmiş qəbul planına uyğun olaraq AMEA prezidentinin 27 avqust 2014-cü il tarixli 185 nömrəli sərəncamı ilə fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul elan olunmuşdur.

Elan olunmuş yerlərə 154 nəfər ərizə vermişdir. Qəbul imtahanları 2014-cü ilin oktyabr-noyabr aylarında keçirilmişdir. Namizədlərin 125 nəfəri imtahanlarda iştirak etmişdir. Doktoranturaya qəbul imtahanlarının nəticələrini, müvafiq elmi bölmələrin qərarlarını və qəbul planında bəzi ixtisaslar üzrə dəyişikliklərin aparılması ilə bağlı vəsatətlərini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR**:

1. Azərbaycan Milli Elmlər Akademiyasında 2014-cü ildə fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbulun nəticələri təsdiq edilsin (əlavə olunur).
2. Əlavədə göstərilən şəxslər uyğun olaraq, əyani doktoranturaya 3 il müddətinə, qiyabi doktoranturaya 4 il müddətinə qəbul edilsinlər.
3. AMEA-nın elmi müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, qəbul edilmiş doktorantların fərdi iş planları 2 ay müddətində elmi müəssisələrin elmi şuralarında təsdiq edilsin.
4. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (texnika üzrə elmlər doktoru Əminağa Sadıqov) tapşırılsın ki, qərarın icrası ilə əlaqədar təşkilati məsələlər həll edilsin.
5. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, qəbul olmuş doktorantların təqaüdlərinin və elmi rəhbərlik üçün əməkhaqqı fondunun ayrılması təmin edilsin.

6. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə və AMEA-nın elmi bölmələrinin akademik-katiblərinə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT